# Hörmətli Adnan Oktarın yeni izahları (28 may 2013-cü il; 23:30)

**BİR İNSAN ÜÇÜN ƏN ƏHƏMİYYƏTLİ ŞEY TƏHLÜKƏSİZLİKDİR. TƏHLÜKƏSİZLİK VƏ SEVGİDİR. ƏN GÜCLÜ İNSTİNKT TƏHLÜKƏSİZLİKDİR.** Heyvanlarda filan da vardır. Heyvan həmişə belə narahat yaşayar, bütün pişiklər, sincablar, aslanlar həmişə heyvanlar belə gizlənərək gedər, həmişə narahat yaşayar. Allahdan insana da verilmiş bir instinkt, təhlükəsizlik instinkti, müdafiə etmə instinktidir. Hz. İbrahim (ə.s)-ın Allaha duası, "Bu şəhəri əmin-amanlıq yurdu et." İbrahim belə demişdi: **"Bu şəhəri əmin-amanlıq yurdu et." (İbrahim surəsi, 35)** Allah Allah, əvvəlcə onu istəyir. Məsələn, Allah Məkkə üçün deyir ki, "Etibarlı olan şəhərdə". "Təhlükəsizlik içində gəzirdiniz" deyir Allah. Məsələn, cənnətin xüsusiyyəti, təhlükəsizlik yurdudur. Heç bir risk yoxdur. Rəbbim, **"Bu şəhəri əmin-amanlıq yurdu et."** Əbcədi  2011-ci il tarixini verir.

<u>HÖRMƏTLİ ADNAN OKTARIN AYƏ İZAHLARI</u>

**Zuxruf surəsi, 57-ci ayə**

**"Məryəm oğlu örnək göstərilincə sənin xalqın qəhqəhələrlə güldü."**

**"Məryəm oğlu örnək göstərilincə sənin xalqın",** Bu adamlar müsəlman. **"dərhal İsa Məsihdən (danışıb) qəhqəhələrlə güldü"** deyir Allah**.** İsa Məsihlə "lağ edirlər" deyir. Allah ayədə intiqam alacağını göstərir. İsa Məsihlə lağ etmənin Allahın acığına getdiyini və intiqam alacağını söyləyir Allah. Hələ də elə deyirlər haşa, "İsa Məsih xortlayacaqmı?" haşa. Baxaq, axirətdə bunu söyləyə biləcəksinizmi? Gedincə İsa Məsihə söyləyə biləcəksinizmi?

**Maidə surəsi, 82- ci ayə**

**Yəhudiləri və müşrikləri iman gətirənlərə qarşı düşmənçilik edən insanların ən pisi olduğunu görəcəksən. "Biz xaçpərəstik!" - deyənləri isə sevgi baxımından iman gətirənlərə ən yaxın olduğunu görəcəksən. Çünki onların arasında keşişlər və rahiblər vardır və onlar təkəbbürlük göstərmirlər.**

**"Biz xaçpərəstik!" - deyənləri isə sevgi baxımından iman gətirənlərə ən yaxın olduğunu görəcəksən."** İndi bax, nə deyir Allah? Sevgi. Bunun mənası nədir, bilirsənmi? Ayə araşdırılarkən bir sağa doğru, bir sola doğru araşdırılar. "Sevgi baxımından iman gətirənlərə ən yaxın olduğunu görəcəksən." Nə deməkdir ayənin mənası? "Siz də onları çox sevin." Mənası budur. İndi biri səni sevirsə, sən onu sevmirsənsə, ortada sevgi olmaz. Mənası nədir? "Siz də onları çox sevin." Ayənin mənası budur. Allah ayədə, "ortada bir məhəbbət olsun, sevgi olsun" deyir. Ayəyə tək tərəfli baxmamaq lazımdır. Məsələn, "Bu pisdir." O zaman nədir? Əksi yaxşıdır. O mənanı verər.

https://www.harunyahya.info/az/meqaleler/hormetli-adnan-oktarin-yeni-izahlari-28-may-2013-cu-il-2330